AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

10 YANVAR 2019-cu il CÜMƏ AXŞAMI № 06 (6333) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Zərdab rayonunun Zərdab-Qaravəlli avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Yeddi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Zərdab-Qaravəlli avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,9 milyon (üç milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 yanvar 2019-cu il.**

# Şimal-Cənub və Şərq-Qərb layihələrinin strateji əhəmiyyəti

## *Dövlət başçısı cənab İlham Əliyev bildirib ki, 2019-cu ildə Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirmək üçün mühüm addımlar atılacaq*

**Dövlət başçısı cənab İlham Əliyevin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, Azərbaycanın tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri ölkənin sosial-iqtisadi inkişafına mühüm və çox əhəmiyyətli töhfələr verir. Azərbaycan iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli işlər görülür, modern nəqliyyat infrastrukturu yaradılır.**

Yeni il ərəfəsində "Rossiya-24" telekanalına müsahibə verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütövlükdə 2018-ci ilin ölkəmiz üçün uğurlu olduğunu vurğulayıb. Ötən ilin geniş ictimai-siyasi, sosial-iqtisadi proseslərinin mənzərəsini yaradan bu müsahibədə Şimal-Cənub və Şərq-Qərb layihələrinin də strateji əhəmiyyətinə diqqət ayıran cənab İlham Əliyev bildirib ki, 2019-cu ildə Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirmək üçün mühüm addımlar atılacaq: "Bu gün Şimal-Cənub və Şərq-Qərb layihələri Azərbaycandan keçir. Biz yeganə ölkəyik ki, bu layihələrin hər ikisində iştirak edirik. Bu layihələrə qoşulan ölkələrin sayı isə ildən-ilə artır. Biz Azərbaycanda ən müasir nəqliyyat infrastrukturu — dəmir yolu, dəniz daşımaları, avtodaşımalar, 6 beynəlxalq aeroport, avtomobil yolları yaratmışıq. Deyə bilərəm ki, Davos İqtisadi Forumunun qiymətləndirməsinə görə, avtomobil yollarının keyfiyyəti üzrə Azərbaycan dünyada 34-cü yeri tutur. Bu kifayət qədər yüksək göstərici bizim həmin layihələrə necə diqqət göstərdiyimizdən xəbər verir".

Bütün bunlar Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir, dövlətimizin siyasi və strateji əhəmiyyətini artırır. Bu baxımdan dövlət başçısının Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici əhəmiyyətə malikdir. Bu liman kompleksi Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün çox önəmli infrastruktur layihəsidir. Azərbaycan eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. Qeyd edək ki, bu dəhliz vasitəsilə göndərilən yüklərin həcmi ildən-ilə artır. Ötən il Şimal-Cənub nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisindən daşınan yüklərin həcmi yüz dəfədən çox artıb. Hazırda Azərbaycan rəsmiləri tərəfdaş ölkələrlə bu layihənin tam həyata keçirilməsi üçün danışıqlar aparır. Azərbaycanın həm tarixi təcrübəsi, həm də mütəxəssisləri və maliyyə resursları imkan verir ki, bu dəhliz tam gücü ilə işləsin, ölkəmizə əlavə valyuta gətirsin.

Dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən nəhəng regional layihələr ölkəmizin beynəlxalq nəqliyyat qovşağına çevrilməsinə, tranzit potensialının daha da güclənməsinə xidmət edir. Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi Xəzər dənizi hövzəsində ən böyük liman kompleksi olmaqla bütöv bir regionun tranzit nöqtəsidir. Limanda yükdaşımanın illik həcmi 25 milyon ton yükə və 1 milyon konteynerə bərabərdir. Layihəyə əsasən limanda logistika mərkəzinin yaradılması da böyük əhəmiyyət kəsb edir.



Marşrutların şaxələndirilməsi və Böyük İpək Yolu üzərində yerləşən ölkələrlə iqtisadi əlaqələrin genişləndirilməsi baxımından Avropa qitəsinin də nəqliyyat müstəqilliyini təmin edən daha bir genişmiqyaslı transregional layihə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Eyni zamanda, Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisində ümumi sahəsi 12 min kvadratmetr olan Bakı Yük Terminalı açılıb. Bu layihə Beynəlxalq Yerüstü Xidmət Şirkətinin (İnternational Handing Company) maliyyə dəstəyi ilə "Khazar Construction" şirkəti tərəfindən həyata keçirilib. Böyük Britaniya, ABŞ və Kanadada istehsal edilmiş, texniki avadanlıqlarla təchiz olunmuş terminalın əlverişli ərazidə yerləşməsi sayəsində Azərbaycan Amerika və Avropadan Asiyaya, eləcə də Asiyadan əks istiqamətdə daşınan yüklər üçün aşırma məntəqəsinə çevriləcək. Bu, "İpək Yolu" layihəsinin ayrılmaz tərkib hissəsidir. Bundan əlavə, terminal bütün regionlardan ölkəmizə yük axınını xeyli artırmağa imkan verəcək, nəticədə Bakı dünyanın mühüm tranzit zonasına çevriləcək. Ekspertlər təsdiqləyir ki, bu terminal MDB məkanında ən böyük və texniki cəhətdən ən yaxşı təchiz olunmuş yük terminalıdır. Həmçinin bu terminal bütün Avropada ən yüksək beynəlxalq tələblərə cavab verən ən yaxşı yük terminallarından biridir. Terminalın texniki bazası yüklərin bütün növlərinin saxlanılmasını və işlənməsini, müştərilər üçün servis xidmətlərinin keyfiyyətini xeyli artırmağı, gömrük xidmətlərinin tam dəstini, o cümlədən gömrük bəyannaməsi və yüklərin çatdırılması üzrə xidmətləri nəzərdə tutur.

Hazırda Azərbaycanda müasir standartlara cavab verən 6 beynəlxalq hava limanı fəaliyyət göstərir. Regionda alternativi olmayan Avropa və Asiya arasında Hava Axınlarının Optimallaşdırılması Mərkəzi 2018-ci ildə istifadəyə verilib. Məhz bu üstünlüyə görə xarici aviaşirkətlər hər hansı məcburi eniş zərurəti yaranarkən Azərbaycan hava limanından istifadə edirlər. Ölkədə aviasiya təhlükəsizliyi üzrə qəbul edilmiş Dövlət Proqramının icrası uğurla həyata keçirilir. Azərbaycan uçuşların təhlükəsizliyi üzrə ən yüksək 1-ci kateqoriya statusunu 2018-ci ildə yenidən özündə saxlayıb. Heydər Əliyev Beynəlxalq Hava Limanı ötən il 5 ulduz statusu ilə dünyanın ən möhtəşəm hava limanları siyahısına daxil edilib.

Məlumat üçün bildirək ki, 2017-2018-ci illərdə hava, avtomobil, su, dəmir yolu nəqliyyatı sahəsində 12 ölkə ilə 15 saziş və Memorandum imzalanıb. Beynəlxalq sərnişindaşıma ilə bağlı 25 istiqamət üzrə müntəzəm beynəlxalq marşrut rəsmiləşdirilib.

Bütün bu görülən işlər bir daha təsdiq edir ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin reallaşdırılmasında mühüm yer tutur.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

## Kənd Təsərrüfatı Nazirliyində pambıqçılığın inkişafı müzakirə olunub

**Kənd Təsərrüfatı Nazirliyində ölkədə pambıqçılığın inkişafına həsr olunmuş müşavirə keçirilib.**



Nazir İnam Kərimovun sədrliyi ilə keçirilən müşavirədə nazirlik Aparatının, tabeli qurumların və pambıq əkini aparılan rayonların Dövlət Aqrar İnkişaf mərkəzlərinin rəhbərləri iştirak ediblər.

Nazirliyin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, müzakirələrdə 2019-cu ildə pambıq əkininə hazırlıq prosesinin mövcud vəziyyəti və görüləcək işlər ətrafında fikir mübadiləsi aparılıb, əkinə hazırlıq prosesi, əkin zamanı texnoloji xəritəyə riayət olunması, fermerlərin təlimlərə cəlb edilməsi ilə bağlı hesabatlar dinlənilib.

Tədbirdə "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrə toxunulub, bu sahənin kənd təsərrüfatının prioritet istiqamətlərindən biri olduğu vurğulanıb.

Sonda bu cür müzakirələrin mütəmadi olaraq ayda bir dəfə keçirilməsi qərara alınıb.

**AZƏRTAC**

## Baş prokuror Şamaxıda vətəndaşları qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov yanvarın 18-də saat 10:00-da Şamaxı Rayon Prokurorluğunun inzibati binasında Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Kürdəmir və Göyçay rayon sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Şamaxı rayonuna gəlmələri müvafiq rayon prokurorları tərəfindən təşkil ediləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

**AZƏRTAC**

## Azərbaycan ilə İran arasında sərhəd təhlükəsizliyinin təminatı məsələləri müzakirə olunub

**Yanvarın 9-da İranın Biləsuvar şəhərində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyevin və İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayinin rəhbərliyi etdikləri nümayəndə heyətlərinin işçi görüşü keçirilib.**



DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tərəflər 2018-ci il dekabrın 11-də Bakıda Azərbaycanın və İranın sərhəd qurumları rəhbərlərinin görüşü zamanı əldə olunmuş razılaşmaların icrasını nəzərdən keçiriblər. İşçi görüşündə, həmçinin sərhəd təhlükəsizliyinin təminatı məsələləri, dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində etibarlı sərhəd nəzarətinin təşkil edilməsi, transsərhəd cinayətkarlığın təzahürləri, o cümlədən narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi, qaçaqmalçılıq, beynəlxalq terrorçuluq, qeyri-leqal miqrasiya və digər təhdidlərlə mübarizə sahəsində sərhəd mühafizə orqanları qarşısında duran tapşırıqlara dair fikir mübadiləsi aparılıb, qarşılıqlı ələqələndirmənin və əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb.

Söhbət zamanı Azərbaycanın və İranın iştirak etdiyi beynəlxalq əhəmiyyətli nəqliyyat layihələri çərçivəsində sərhəd infrastrukturunun təkmilləşdirilməsi, sərhəd nəzarəti prosedurunun sürətləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər nəticəsində "Astara" və "Biləsuvar" dövlət sərhədindən buraxılış məntəqələrinin 24 saatlıq iş rejiminə keçirilməsinin əhəmiyyəti vurğulanıb. Bununla yanaşı, "Astara dəmir yolu" dövlət sərhədindən buraxılış məntəqəsinin tam həcmdə fəaliyyət göstərməsi, Astara çayı üzərindən yeni avtomobil körpüsünün və piyada keçidinin tikintisi üzrə işlərin aparılması üçün hər iki tərəfdən zəruri tədbirlərin görülməsinin vacibliyi qeyd olunub.

Görüşdə sərhəd mühafizəsi sahəsində məlumat mübadiləsinin aparılması, birgə tədbirlərin təşkili və maraq kəsb edən məsələlər üzrə əməkdaşlığın inkişafı məqsədilə bilavasitə dövlət sərhədində və dövlət sərhədindən buraxılış məntəqələrində görüşlərin davamlı təşkili barədə razılıq əldə edilib.

**AZƏRTAC**

## 2019-cu ilin ilk rəqabətli hərracı: 15 dövlət əmlakı özəlləşdirildi

Əmlak Məsələləri Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən hərraclar dövlət əmlaklarının özəlləşdirilməsini reallaşdırmaqla yeni biznes obyektlərinin yaranmasına dəstək olur. Vətəndaşların sərbəst iştirakçılığı ilə növbəti hərrac 8 yanvar tarixində keçirildi. İlin ilk hərracında iştirak üçün investorlar tərəfindən 5 kiçik dövlət müəssisə və obyekti, 9 qeyri-yaşayış sahəsi və 1 yarımçıq tikili üzrə ümumilikdə 21 sifariş verilmişdir.

Paytaxtda yerləşən kiçik dövlət müəssisələrdən biri rəqabətli mühitdə özəlləşdirildi. Belə ki, Bakı şəhəri, Xətai rayonu, İ.Həbibov küçəsindəki mağazanın ümumi faydalı sahəsi 95.8 kv.m-dir. Dövlət əmlakına ilkin qiymət 35 min manat təyin olunsa da, sifarişçilərdən biri 35 min 500 manat təklif edərək obyekti özəlləşdirdi. Qax rayonundakı əmlakın isə ümumi faydalı sahəsi 661,5 kvadratmetrdir. Bu dövlət obyektini özəlləşdirən şəxs 3293 kvadratmetrlik torpaq sahəsi ilə birgə əmlaka investisiya yatıra biləcək.

İştirakçılar tərəfindən özəlləşdirilən qeyri-yaşayış sahələrindən biri Zərdab şəhərində, digərləri isə paytaxtın müxtəlif rayonlarında yerləşir. Bu kateqoriya üzrə ən yüksək ümumi faydalı sahəsi və hərrac qiyməti olan dövlət əmlakı Bakı şəhəri, Xətai rayonu, Xocalı prospektindədir. 143 kvadratmetrlik sahəsi olan, xidmət fəaliyyəti üçün əlverişli obyekti vətəndaş 35 min manata özəlləşdirdi. Özəlləşdirilən yarımçıq tikili İsmayıllı şəhəri, M.F.Axundov küçəsindədir. Dövlət əmlakının ümumi faydalı sahəsi 3377 kv.m, birlikdə özəlləşdirildiyi torpağın ərazisi isə 1732.8 kvadratmetrdir.

Qeyd edilməlidir ki, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən keçirilən hərraclarda 900-ə yaxın elektron sifariş qəbul edilib, 30-a yaxın vətəndaş hərracda onlayn formada iştirak edib. Ötən il ərzində reallaşan hərraclarda 600-ə yaxın dövlət əmlakı, o cümlədən torpaq sahələri və nəqliyyat vasitələri özəlləşdirilmişdir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

## "ASAN xidmət" mərkəzi vasitəsilə 292 icazə verilib

**Ötən ilin IV rübü ərzində Energetika Nazirliyi tərəfindən ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, idxalı və tranziti üzrə edilən 57 müraciətə icazə verilib. Bunlardan 53-ü 5 saylı "ASAN xidmət" mərkəzi vasitəsilə həyata keçirilib.**

Verilmiş icazələrin 52-si ixrac nəzarətinə düşən malların idxalı, 1-i ixrac nəzarətinə düşən malların ixracı, 4-ü isə ixrac nəzarətinə düşən malların tranziti ilə bağlı olub.

Ümumilikdə 2018-ci il ərzində Energetika Nazirliyi tərəfindən ixrac nəzarətinə düşən malların idxalı, ixracı və tranzitinə 292 icazə verilib. Bu icazələrin 244-ü idxal, 24-ü ixrac, 24-ü isə tranzitlə bağlı olub. Onların 242-si "ASAN xidmət" mərkəzi vasitəsilə həyata keçirilib.

Hazırda 3 növ icazənin "ASAN xidmət" mərkəzi vasitəsilə verilməsi həyata keçirilir. Bura ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazə, müəyyən iştirakçılara mənsub ola bilən əşyaların dövriyyəsinə icazə və ixrac məqsədli neft-qaz sahəsi üzrə fəaliyyətə xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin verilməsi daxildir.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# AZƏRBAYCAN DİLÇİLİYİNİN KORİFEYİ

**Özündən sonra silinməz izlər qoyan, böyük şəxsiyyətlər daim gələcək nəsillərin yaddaşında yaşayır. Görkəmli dilçi-alim, məşhur türkoloq, əlifba islahatçısı, layiqli vətəndaş, mübariz ictimai xadim Afad Qurbanov da belə şəxsiyyətlərdəndir.**

**Azərbaycanın hazırkı əlifbasının müəllifi və islahatçısı, milli və beynəlxalq akademiyaların akademiki, dünyanın bir çox linqvistik və onomastik elmi təşkilatlarının həqiqi və ya fəxri üzvü, SSRİ Elmlər Akademiyasının Sovet Türkoloqları Komitəsinin sədr müavini, Azərbaycan SSR Elmlər Akademiyasının üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Afad Qurbanov uzun illər bütün qüvvə və bacarığını dilimizin hərtərəfli tədqiqinə və təbliğinə, yüksəkixtisaslı elmi-pedaqoji kadrların, alimlərin yetişdirilməsinə həsr etmişdir. Onun ömür kitabını vərəqləyəndə gözlərimiz önündə istedadlı bir linqvist-alim, fədakar müəllim, müdrik bir insan canlanır. O, orta məktəb müəllimliyindən Azərbaycan Milli Elmlər Akademiyasının üzvlüyünədək şərəfli bir həyat yolu keçmiş, gələcək nəsillərə nümunə ola biləcək dəyərli və mənalı bir ömür yaşamışdır.**

Səmimiyyət, təbiilik, qayğıkeşlik, mərdlik, tələbkarlıq, prinsipiallıq onun təbiətindən doğan ali keyfiyyətlərindən idi. A.Qurbanov öz alim fərdiyyətini təsdiq edən, özünü yaxşı mənada başqalarından fərqləndirə bilən alim idi. Həmişə tədqiqat axtarışları, elmi təfəkkür və düşüncələrlə zəngin olan A.Qurbanov ömrünün sonunadək alim həyatının və elmi fəaliyyətinin zirvəsində idi.

Dilçiliyin bir sıra sahələrinin əsasını qoymuş, filoloji məktəb yaratmış Afad Qurbanov çox zəngin və məhsuldar bir yaradıcılığa malik idi. Onun elmi fəaliyyət sahəsi rəngarəng, tədqiqat meydanı geniş və əhatəli olmuşdur. Azərbaycan dilçiliyinin elə bir sahəsi yoxdur ki, alim onu araşdırmasın və ona öz münasibətini bildirməsin. Onun çoxlu sayda əsərləri elmiliyi, professionallığı ilə seçilir, müəllifin dərin, sərrast elmi təfəkküründən xəbər verir. Alimin ümumi, türkoloji və Azərbaycan dilçiliyinin tədqiqatlarına dair 70-dən artıq kitabı, dərsliyi, monoqrafiyası, 500-dən çox elmi-metodik məqaləsi nəşr edilmişdir. Alimin bütün əsərləri Azərbaycan dilçiliyində mövcud problemlərin həllinə kömək etmişdir. Bu əsərlərin bir qismi müxtəlif mükafatlara layiq görülmüş, bir qismi isə xarici ölkələrdə, o cümlədən Rusiya, Türkiyə və başqa dövlətlərin mətbuatında dərc edilmişdir. Onun ikicildlik "Ümumi dilçilik", "Müasir Azərbaycan ədəbi dili", "Azərbaycan dilinin onomalogiyası" və s. kitabları milli və dünya dilçilik xəzinəsinin ən kamil və dəyərli incilərindəndir. Afad Qurbanov yazdığı əsərlərə görə dövlət tərəfindən təltif edilmiş az sayda dilçi alimlərimizdən biridir. O, dövlət mükafatına çoxsaylı əsərlərindən ancaq birinə - ikicildlik "Azərbaycan dilinin onomalogiyası" monoqrafiyasına görə layiq görülmüşdür.

A.Qurbanov istedadlı alim və peşəkar müəllim olmaqla yanaşı, həm də fəal təşkilatçı xadim idi. O, müxtəlif vəzifələrdə işlədiyi dövrdə yüksək təşkilatçılıq bacarığı nümayiş etdirmiş, 1990-1995-ci illərdə isə Azərbaycan Parlamentinin deputatı kimi fəaliyyəti xalq və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1992-ci ildə məhz Afad Qurbanovun təşəbbüsü ilə bir qrup xalq deputatı ulu öndərimiz Heydər Əliyevə qarşı təzyiqləri pisləyən bəyanatla çıxış etmişlər. Bəyanatda Heydər Əliyevin dövlət xadimi, görkəmli şəxsiyyət kimi xalqımız qarşısındakı xidmətləri, Azərbaycan tarixində tutduğu yer göstərilmişdir.

Afad Məhəmməd oğlu Qurbanov 1929-cu il yanvarın 10-da Qərbi Azərbaycanın Kalinino rayonunun Qızıl Şəfəq kəndində yüksək rütbəli hərbçi ailəsində anadan olmuşdur. O, orta təhsilini Ermənistanın Qızıl Şəfəq və İlməzli məktəblərində almışdır. Müharibə illərindəki kadr qıtlığı, habelə onun savadı və təşkilatçılıq bacarığı nəzərə alınaraq 1945-ci ildə 16 yaşlı yeniyetmə Qızıl Şəfəq yeddiillik məktəbinin direktoru və Azərbaycan dili müəllimi təyin edilmişdir. Məhz həmin ildən Afad Qurbanov pedaqoji fəaliyyətə başlamışdır. Gənc yaşlarından məktəb direktoru, həm də müəllim kimi gərgin fəaliyyət göstərən Afad Qurbanov 1946-cı ildə arxa cəbhədə fədakar əməyinə görə İkinci Dünya müharibəsinin veteranı medalı ilə təltif edilmişdir.

Sonradan 1948-ci ildə Gürcüstan Müəllimlər İnstitutunu fərqlənmə diplomu ilə bitirən Afad Qurbanov Başkeçid rayonundakı Qruzman yeddiillik kənd məktəbinə direktor, Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin etmişlər. Təhsilini davam etdirmək məqsədi ilə o, öz xahişi ilə vəzifədən azad olunaraq elə həmin il Bakıya gəlmiş və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinə daxil olmuşdur.

1951-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vuran Afad Qurbanovun dərin bilik və bacarığına bələd olan Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Əbdüləzəl Dəmirçizadə onun institutda saxlanılması ilə bağlı rektorluğa müraciət etmişdir. Lakin bu müraciətə əhəmiyyət verilməmiş, dilçilik üzrə aspiranturaya yer ayrılmamış və Afad müəllim bir müddət orta məktəbdə fəaliyyət göstərməli olmuşdur.

Afad Qurbanov savadına, təşkilatçılıq bacarığına görə Gürcüstan Maarif Nazirliyi tərəfindən azərbaycanlıların ən böyük təhsil ocağı olan Başkeçid rayonundakı Hamamlı kənd orta məktəbinin direktoru vəzifəsinə təyin edilmişdir. İyirmi iki yaşlı gəncin iki mindən artıq şagirdi, onlarca müəllimi olan böyük təhsil ocağına rəhbərlik etməsi nadir hadisə idi. Afad Qurbanov ona göstərilən etimadı ləyaqətlə doğrultmuş və direktor işlədiyi dörd il ərzində Hamamlı orta məktəbini qabaqcıl təhsil ocaqları sırasına çıxarmışdır.

Bununla kifayətlənməyən Afad Qurbanov elm-təhsil yolunu seçmiş, A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunda qısamüddətli müəllimlik fəaliyyətindən sonra 1956-cı ildə Bakıya qayıtmış və elə həmin il Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dilçiliyi kafedrasında aspiranturaya daxil olmuşdur. Eyni zamanda Bakı Ali Partiya Məktəbində və Azərbaycan Dövlət Dillər İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasında müəllimlik fəaliyyətini davam etdirmişdir.

Afad Qurbanov aspiranturada oxuyarkən Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Ə.Dəmirçizadənin elmi rəhbərliyi altında Səməd Vurğunun dramaturgiyasının dil üzərində tədqiqat işləri aparmış, elmi işini vaxtından əvvəl yazıb qurtardığı üçün rektorluq tərəfindən mükafatlandırılmış və institutda saxlanılmışdır.

Afad Qurbanov 1962-ci ildə S.Vurğunun "Vaqif" pyesinin dili və üslubu mövzusunda namizədlik, 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının İctimai elmlər bölməsində "Müasir Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir. 1970-ci ildə Ali Attestasiya Komissiyası Afad Qurbanovu professor vəzifəsinə layiq görmüşdür.

Afad Qurbanov 1959-cu ildən Azərbaycan dilçiliyi kafedrasında assistent, müəllim, 1965-ci ildən dosent vəzifələrində çalışmışdır. Dərin elmi biliyə və yüksək təşkilatçılıq qabiliyyətinə görə Afad Qurbanova həmişə etimad göstərilmişdir. O, 1967-1981-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinin dekan müavini, 13 il dekanı işləmiş, 1981-1989-cu illərdə İnstitutun rektoru vəzifəsində çalışmış, həmin dövrdə də Filologiya Elmləri üzrə Müdafiə Şurasının və Pedaqoji Elmləri üzrə Müdafiə Şurasının sədri olmuşdur. Afad Qurbanov 1979-cu ildən həyatının sonuna kimi, 30 il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Afad Qurbanov 1979-cu ildən "Azərbaycan toponimləri" lüğəti ensiklopedik nəşrinin, "Dil və ədəbiyyat" məcmuəsinin, "Elm və həyat" jurnalının, "Təhsil və Türkologiya" jurnalının redaksiya heyətinin üzvü, "Dilçilik" elmi-linqvistik və "Onomastika" elmi-onomastik jurnalının təsisçisi, baş redaktoru olmuşdur.

1970-ci ildən başlayaraq Afad Qurbanov Azərbaycan elminin inkişafında və yüksəkixtisaslı elmi və pedaqoji kadrların hazırlanmasında xidmətlərinə görə dəfələrlə həm ölkə başçısı, həm də Ali Sovetin Rəyasət Heyəti, Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Təhsil Nazirliyi tərəfindən Fəxri fərmanlara, təltiflərə layiq görülmüşdür.

Afad Qurbanov 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, yeganə dilçi alim olmuşdur ki, 1988-ci ildən namizədliyi SSRİ Elmlər Akademiyası tərəfindən Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlüyünə irəli sürülmüşdür.

1992-2000-ci illərdə görkəmli alim Azərbaycan Milli Yaradıcılıq Akademiyasının, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının, Nyu-York Akademiyasının akademiki, Türk Dil Qurumunun şərəfli üzvü, Sürətli Türk Dili Məclisinin həqiqi üzvü, Belçika Onomastika Cəmiyyətinin, Finlandiyanın Fin-Uqor Cəmiyyətinin və digər təşkilatların həqiqi və ya fəxri üzvü seçilmişdir.

Böyük alimin 1987-ci ildə ABŞ-ın İndiana Universitetində keçirilən Türk Tədqiqatları üzrə İkinci Beynəlxalq Konfransında "Azərbaycan onomastikası sahəsində elmi tədqiqatlar" mövzusunda məruzəsi, 1989-cu ildə isə Norveçin Ural-Altay İnstitutu tərəfindən Oslo şəhərində keçirilən Daimi Beynəlxalq Altayşünaslıq Konfransının 32-ci iclasında "Kutianlar və onların şəxsi adları" adlı məruzəsi dinlənilmişdir.

Azərbaycan dilçiliyində ümumdilçilik problemləri sahəsindəki ilk və yeganə sanballı elmi araşdırmalar, türkoloji dilçilik sahəsində əsaslı tədqiqatlar, onomastika elmi məktəbinin yaradılması, habelə Azərbaycanda əlifba islahatı və hazırkı əlifbamızın hazırlanması professor Afad Qurbanovun adı ilə bağlıdır. Onun yazdığı ikicildlik "Ümumi dilçilik", "Azərbaycan onomalogiyasının əsasları" adlı kitabları milli zəmində yazılmış ilk dərslik və monoqrafiyalar kimi çox böyük əhəmiyyətə malikdir.

Azərbaycanda ümumi dilçiliyə aid müxtəlif tipli əsərlər yazılmasına baxmayaraq, dilçiliyin bu sahəsi konseptual səviyyəyə yüksələ bilməmiş, kitablar qəliz dildə yazılmış və ümumi dilçiliyin bütün sahələrini tam əhatə etməmişdi. Azərbaycan dilçiliyində ümumdilçilik problemləri sahəsindəki ilk sanballı elmi əsərləri, kitabları, dərslikləri, dərs vəsaitlərini, tədris proqramlarını Afad Qurbanov yazmışdır. "Ümumi dilçilik məsələləri" dərs vəsaiti (1972), "Dilçilik sistemi", "Dilçiliyin tarixi" əsərləri (1976), "Ümumi dilçilik" dərsliyi (1977), ikicildlik "Ümumi dilçilik" monoqrafiyası (1989, 1993, 2004, 2010), habelə rus və türk dillərində kitabları, 1977-ci ildən bu günə kimi istifadə olunan "Ümumi dilçilik" adlı kitabı Azərbaycan pedaqoji təhsil müəssisələri üçün milli zəmində yazılmış ilk və yeganə dərslik kimi aktuallığını saxlamaqdadır.

Afad Qurbanov XX əsrin görkəmli türkoloq dilçilərindəndir. O, türkologiyanın digər korifeyləri - akademik Kononov, Teneşev, Şerbak ilə birgə zamanında türkologiyanın inkişafına öz tarixi töhfəsini vermişdir. Onun "Türkoloji dilçilik" monoqrafiyası, "Türk antroponimlərinin inkişaf dövrləri", "Ümumtürk antroponimiyası tarixi", "Türkoloji dilçiliyə dair biblioqrafiya", "Türk xalqlarında advermə ənənələri", "Qədim türk adları", "Ortaq türk dili" və s. kitabları fədakar alimin yorulmaz axtarışlarının nəticəsi olmuşdur.

Azərbaycanın dilçilik tarixində elmi məktəb yaratmış az sayda dillərimiz mövcuddur. XX əsrin ikinci yarısı Azərbaycan dilçiliyinin inkişafında xüsusi mərhələ hesab olunur və bu mərhələdə Azərbaycan onomalogiyasının müstəqil nəzəri dilçilik şöbəsinin elmi məktəb kimi formalaşması bilavasitə Afad Qurbanovun adı və fəaliyyəti ilə bağlıdır. Alimin dilçiliyin bütün sahələrində, əsasən, ümumdilçilik, türkologiya və onomalogiya ilə bağlı tədqiqatları təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da öyrənilir, oxunur və tədris edilir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə əlifba islahatının aparılmasında Afad Qurbanovun Azərbaycan Əlifba Komissiyasının sədri və yeni latın qrafikalı əlifbanın müəllifi kimi böyük xidmətləri olmuşdur. İstedadlı alim, bacarıqlı təşkilatçı olan Afad Qurbanov bütün qüvvə və bacarığını xalqın arzu və istəklərini əks etdirən bu mühüm işə - Azərbaycan əlifbasının yeni latın qrafikasına keçməsinə həsr etmişdir. Xalqın milli sərvəti olan bugünkü əlifba bu yorulmaz insanın, fəal vətəndaşın, görkəmli dilçi alim Afad Qurbanovun elmi və ictimai fəaliyyətinin bəhrəsi kimi Azərbaycan xalqına bəxş etdiyi töhfələrindəndir.



Afad Qurbanovun həyatının böyük bir hissəsi - qırx ili SSRİ və Azərbaycan Elmlər Akademiyası ilə bağlı olub. O, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü kimi elmi yaradıcılıq fəaliyyətini Elmlər Akademiyası ilə sıx əlaqəli aparmaqla dilçilik elminin inkişaf etdirilməsində öz səylərini əsirgəməmişdir.

Afad Qurbanov Azərbaycan Milli Elmlər Akademiyasının əksər komissiyalarının işinə cəlb olunan nadir üzvlərindən idi. O, AMEA-nın Terminologiya Komitəsinin, Dövlət dili haqqında qanun layihəsinin hazırlanması ilə bağlı Komissiyanın, Adlar və Soyadlar üzrə Xüsusi Komissiyanın, İctimai elmlər üzrə Əlaqələndirmə Şurasının, Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının, Müdafiə Şurasının, Elmlər Akademiyasının strukturunun təkmilləşdirilməsi və yeni nizamnamə layihəsinin hazırlanması üzrə Komissiyanın və digər bir çox komissiyaların fəal üzvü olmuş, gərgin və səmərəli fəaliyyəti, yüksək elmi-təşkilatçılıq qabiliyyəti ilə seçilmişdir.

XX əsr Azərbaycan dilçiliyinin korifeyi Afad Qurbanovun Azərbaycan dilçilik elminə verdiyi töhfələr, əsasını qoyduğu Azərbaycan onomalogiyası elmi məktəbi, yazdığı çoxsaylı sanballı əsərlər, hazırladığı və bu gün istifadə etdiyimiz latın qrafikalı əlifba, yetişdirdiyi yüksəkixtisaslı elmi-pedaqoji kadrlar xalqa təmənnasız xidmətin, yüksək mənada vətəndaşlığın, fədakar alim fəaliyyətinin parlaq nümunəsidir. Afad Qurbanov Azərbaycan dilçilik elmi salnaməsində ən şərəfli yerlərdən birini tutur.

**İsmayıl MƏMMƏDLİ,**
**AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi Dilçilik Şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor.**

# AzMİU-da imtahan prosesi obyektivliyi və şəffaflığı ilə diqqəti cəlb etdi

**Ötən gün Azərbaycan Memarlıq və İnşaat Universitetində ictimaiyyət nümayəndələrinin - millət vəkillərinin, qeyri-hökumət təşkilatları və KİV nümayəndələrinin iştirakı ilə 2018-2019-cu tədris ilinin payız semestrinin imtahan sessiyasını müşahidə etmək üçün ənənəvi mediatur keçirilib.**



İmtahan otaqlarına baxışdan əvvəl nümayəndə heyətini universitetin rektoru, professor Gülçöhrə Məmmədova qəbul edib, qonaqlara payız imtahan sessiyasının təşkili və gedişatı, imtahan prosesində obyektivliyin, şəffaflığın təmin olunması ilə bağlı aparılan məqsədyönlü tədbirlər və imtahan qaydaları haqqında geniş məlumat verib. Rektor bildirib ki, sessiya zamanı tələbələrin biliyinin obyektiv və şəffaf qiymətləndirilməsi üçün müvafiq tədbirlər görülüb, imtahanlar zamanı daxil olan şikayətlərin operativ araşdırılması, vaxtında həll edilməsi məqsədi ilə universitetdə imtahan qərargahı yaradılıb. Eyni zamanda rektor bildirib ki, özünün sədr olduğu Münaqişə komissiyası da fəaliyyət göstərir, imtahan nəticələrindən narazı qalan tələbələr komissiyaya müraciət edib şikayətlərini həll edə bilirlər. "Mən özüm şəxsən imtahanları birbaşa izləmək imkanına malikəm, imtahan zallarında baş verənləri görürəm. Universitet əməkdaşlarından ibarət rəsmi qaydada təyin olunmuş qeyri-ixtisasdan olan nəzarətçilər və imtahan rəhbərləri tərəfindən imtahanların gedişinə ciddi nəzarət edilir. Yazılı imtahanların nəticələrinin şifrələnməsi, işlərin qiymətləndirilməsi, bütövlükdə yoxlama prosesinə nəzarət etmək üçün həmin otaqlarda müşahidə kameraları quraşdırılıb".

Sonra imtahan zallarına baxış keçirilib, universitet rəhbərliyi, qonaqlar KİV nümayəndələrinin iştirakı ilə imtahan prosesini müşahidə ediblər, tələbələrin imtahanların gedişinə münasibəti ilə maraqlanıblar, yazılı imtahan işlərinin kodlaşdırılması otağında olublar. KİV nümayəndələri imtahanların vəziyyətini öyrənmək üçün tələbələrə suallar veriblər, imtahanın gedişi ilə maraqlanıblar. Nümayəndə heyəti AzMİU-nun Memarlıq fakültəsinin yeni binası ilə də tanış olublar, layihələndirmə dərslərinin qiymətləndirilməsi otağına baş çəkib, tələbələrin işlərinə baxıblar.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# FHN və Baş Prokurorluq Yasamal rayonunda baş vermiş partlayışla bağlı birgə məlumat yayıb

**Fövqəladə Hallar Nazirliyi (FHN) və Baş Prokurorluq yanvarın 9-da paytaxtın Yasamal rayonunda baş vermiş və üç nəfərin ölümü ilə nəticələnmiş partlayışla bağlı birgə məlumat yayıb.**

Hər iki qurumun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, yanvarın 9-da saat 03 radələrində paytaxtın Yasamal rayonu, Tolstoy küçəsi, ev 40 ünvanında yanğınla müşayiət olunan partlayışın baş verməsi barədə məlumat daxil olub.

Daxil olmuş məlumat əsasında FHN-in Əməliyyat-İstintaq İdarəsinin, Dövlət Yanğından Mühafizə və Dövlət Yanğın Nəzarəti xidmətlərinin, "Azəriqaz" İstehsalat Birliyinin, rayon polis idarəsinin və rayon prokurorluğunun əməkdaşları dərhal hadisə yerinə gəliblər. Yanğın söndürüldükdən sonra ekspertlərin iştirakı ilə hadisə yerinə baxış keçirilib və digər təxirəsalınmaz hərəkətlər yerinə yetirilib.

Hadisə yerinə baxış zamanı müəyyən edilib ki, partlayış nəticəsində həmin ünvanda yaşayan Aydın Məmmədov, arvadı Xuraman Məmmədova və qızı Aygün Məmmədova aldıqları bədən xəsarətlərindən hadisə yerində həlak olublar. Baxış zamanı, həmçinin fərdi yaşayış evinin yataq otağında divarda yerləşdirilmiş və evi qızdırmaq üçün istifadə edilən, nəzarət kranları açıq vəziyyətdə olan qaz sobası aşkarlanıb. İlkin ehtimala görə partlayış qaz sızması nəticəsində baş verib.

Faktla bağlı FHN-in Əməliyyat-İstintaq İdarəsində Cinayət Məcəlləsinin 225.2-ci (Yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, məhkəmə tibbi, yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi və əmtəəşünaslıq ekspertizaları təyin olunub.

Hazırda təqsirkar şəxslərin müəyyənləşdirilməsi məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# SƏYYAR GÖRÜŞLƏR





**Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında böyük uzaqgörənliklə düşünülmüş, məqsədyönlü siyasəti, Dövlət proqramlarının qəbul edilib uğurla icra edilməsi, sosial-iqtisadi islahatların ardıcıl və qətiyyətlə davam etdirilməsi nəticəsində dayanıqlı iqtisadiyyata malik bir dövlətə çevrilmiş, bu isə Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin tam təmin olunmasına, rifah halının yüksəlməsinə, sabitlik və əmin-amanlıq şəraitində yaşamasına zəmin yaratmışdır.**

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun vətəndaşlarla görüşmək, onların müraciətlərini dinləmək, problemlərinin vaxtında həll olunması üçün Gəncədə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovun şəhər sakinləri ilə görüşləri, səyyar qəbulları, problemlərin yerində öyrənilməsi, həll edilməsi, onlara qayğı ilə yanaşılması, çox səmimiyyətlə keçməsi vətəndaşları razı salır. Operativlik, dəqiqlik, hərtərəfli araşdırmalar, ən başlıcası insanlara verilən yüksək dəyər bu qəbulların əsasını təşkil edir. Vətəndaş hiss edir ki, onun müraciəti dərhal diqqətə alınır, qəbulda iştirak edən müvafiq təşkilatların rəhbərlərinə tapşırıqlar verilir, problem öz həllini tapır.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov şəhərin Bağbanlar yaşayış massivinin sakinləri ilə görüşü də böyük razılıqla qarşılanmışdır. "Açıq mikrofon" şəraitində keçən görüşdə vətəndaşların şikayət və təklifləri fərdi dinlənilib. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, ölkə rəhbəri Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun keçirilən bu tip görüşlərin məqsədi sakinlərin problemlərini yaxından öyrənmək və operativ həll etməkdir. Şikayətlər əsasən su-kanalizasiya xətlərinin çəkilməsi, yollardakı asfalt örtüyünün yenilənməsi və işlə təminatla bağlı olub. Bildirilib ki, Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi davam etdirilir. Bununla yanaşı, şəhərdəki bir çox küçələrin asfalt örtüyü yenilənmiş, müasir gecə işıqlandırılması qurulmuş və davam etməkdədir. Sakinləri narahat edən məsələlərdən biri də yaşayış massivinin bəzi ərazilərində qazın təzyiqinin aşağı olması olub. Bununla yanaşı, sakinlər ərazidə fəaliyyət göstərən ictimai nəqliyyat vasitələrinin marşrut xətlərinin uzadılmasını da xahiş ediblər. Dilə gətirilən şikayət və təkliflərin araşdırılaraq həll edilməsi ilə bağlı ciddi tapşırıqlar verilib. Səsləndirilən digər problemlərin bir çoxu yerindəcə öz həllini tapıb, bəzilərinin araşdırılaraq aradan qaldırılması üçün isə aidiyyəti qurum və şəxslərə müvafiq tapşırıqlar verilib.

* * *

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov daha bir səyyar qəbul keçirib. Bu dəfə 1 saylı sahə inzibati ərazi dairəsinin ərazisində yaşayan sakinlərin müraciətləri dinlənilib. Ərazidə yaşayan 50-yə yaxın vətəndaş, "açıq mikrofon" şəraitində keçən qəbulda öz müraciətini dilə gətirib. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov sakinləri salamlayaraq bildirib ki, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirilən görüşlərin məqsədi sakinlərin problemlərini öyrənmək və onları həll etməkdir. Qəbulda əsasən küçə işıqlanması, qaz şəbəkələrinin quraşdırılması, yol infrastrukturunun bərpası, nəqliyyat problemlərinin aradan qaldırılması, işlə təminat və digər məsələlərə bağlı müraciətlər səsləndirilib. Səsləndirilən digər bir sıra problemlər yerindəcə öz həllini tapıb, icra strukturunun fəaliyyətinə daxil olmayan məsələlər isə araşdırılaraq aradan qaldırılması üçün aidiyyəti qurum və şəxslərə müvafiq tapşırıqlar verilib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Açıq tenderə dəvət edir:
Tender 1 lot üzrə keçirilir:

Lot 1 - Azərbaycanın görkəmli yazıçıları, şairləri və incəsənət xadimlərinin yubileyləri münasibətilə nəşrlərin həyata keçirilməsi, Azərbaycan tarixini, mədəniyyətinin dünənini, bu gününü və perspektiv inkişafını əks etdirən yüksəkkeyfiyyətli, prestijli kitabların, albomların, kataloqların, dərsliklərin, elmi və metodik vəsaitlərin hazırlanması, çapı və digər poliqrafiya işlərinin icrası

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi (Əlaqələndirici şəxs: Aslan Cəfərov, 012-493-30-05) ünvanından ala bilərlər.

İştirak haqqı
Lot 1 - 200 manat
Hesab: AZ78CTRE00000000000002178501
VÖEN: 1700015381
Bank: Dövlət Xəzinədarlığı Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZO1360100000000003944
S.W.İ.F.T.: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər: son 3 ildə (illər üzrə) görülmüş nəşr işləri və onun ümumi dəyəri haqqında məlumat; İddiaçının son bir illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr, həmçinin bu məlumatları əldə etmək məqsədi ilə müraciət edilə biləcək şəxslərin adı, telefonu; Nəşr məhsullarının hazırlanması və çapı üzrə analoji iş təcrübəsi barədə məlumat; yekun müqaviləsinin yerinə yetirilməsində istifadə ediləcək əsas çap avadanlıqları haqqında məlumat; yekun Müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edən və texniki işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri haqqında məlumat; Dövlət Sosial Müdafiə Fonduna verilmiş hesabatın surəti və Dövlət Sosial Müdafiə Fondunun arayışı, Məhkəmə araşdırmalarına cəlb olunub olunmaması barədə məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2018-02-14 saat 18:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2018-02-21 saat 18:00-a qədər Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2018-02-22 saat 11:00 tarixində Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 84, Hökumət Evi ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

*Yeni nəşr*

# Professor Əsgər Zeynalovun “Volter və Hüqonun Şərq dünyası” kitabı İsveçdə çap edilmişdir

ADU-nun Qafqazşünaslıq kafedrasının müdiri, Nyu-York Elmlər Akademiyasının üzvü, Özbəkistan Turan Elmlər Akademiyasının akademiki, filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun təkcə respublikamızda deyil, xarici ölkələrdə də dəyərli tədqiqat əsərləri nəşr olunmuşdur: Rusiyada, Amerika Birləşmiş Ştatlarında, Fransa, Almaniya, İngiltərə, Kanada və Hindistanda, bir neçə gün əvvəl isə Nobellərin vətəni İsveçin Malmö şəhərində “Tryck Holmbergs” nəşriyyatında “Volter və Hüqonun Şərq dünyası” monoqrafiyası çap olunmuşdur. Kitabı ingilis dilinə ADU-nun dosenti Fialə xanım Abdullayeva tərcümə etmişdir. 270 səhifədən ibarət olan bu kitabda iki dahi fransız ədibinin – Volter və Hüqonun Şərq mövzusunda yazdığı əsərlər tədqiqata cəlb edilmişdir. Onun çoxşaxəli yaradıcılığını diqqətlə izlədikdə burada üç xəttin keçdiyi aydın bir şəkildə nəzərə çarpır: şərqçilik, türkçülük və azərbaycançılıq.

Türklərə gəlincə, Volter “Esse”lərində yazır ki, türklər, tatarlar, skiflər eyni kökə mənsubdurlar, Atillanın da bu kökə mənsubluğunu nəzərə alsaq, onda görərik ki, onlar bütün yer üzünü işğal etmişdi. Onların buna mənəvi haqları da var idi. Çünki onlar hamıdan güclü, qüvvətli və sərt idilər. Volter onu da qeyd edir ki, türklər həm mərhəmətli, həm də qəddardılar. Onların sərtlikləri əcdadları skiflərdən qalmışdır.

Müəllif Volterin 1756-cı ildə qələmə aldığı “Millətlərin adətləri və düşüncə tərzi haqqında esse” əsərində ədibin “Astiaq əfsanəsi”, Zərdüştilik baxışlarına münasibətini tədqiq etməyə çalışır. Bir sıra qaynaqlara söykənən professor Ə.Zeynalov təkidlə sübut etməyə çalışır ki, Zərdüşt Azərbaycanda doğulub, o, Azərbaycana məxsusdur.

Hüqonun “Şərq motivlərinin təhlilində araşdırıcı bu şeirlərdə Şərq xarakterini və fransız sənətkarının yaradıcılığına Şərq ədəbiyyatının təsirini göstərməyə çalışmışdır. Eyni zamanda kitabda şairin İslam dinini qəbul etməsinə münasibətini bildirmişdir.

Volterin “Zairə” faciəsindən danışan tədqiqatçı qaynaqlara söykənərək yazır ki, fransız ədibinin bu faciəni yazmaqda məqsədi Avropa ölkələrinin Şərqə ediləcək hücumlarından yayındırmaq olmuşdur. Lakin faciənin yazılmasından çox çəkmədi ki, İngiltərə və Fransanın Şərqə hücumları başladı. Əsərdəki hadisələr üçüncü Səlib müharibələri dövrünə təsadüf edir. Əsərin baş qəhrəmanı Orosmanın Korosmana cavabı Volterin Avropa hökmdarlarına bir mesajı idi: “Korosman, siz öz həyəcanınızla yanılırsınız. Xeyr, bundan sonra Lüdovik heç vaxt mənə silah çevirməyəcək: fransızlar Ərəbistanın susuz səhralarında üzülüb əldən düşərək, yürüşlərdən təngə gəliblər, onlar öz məhsuldar ölkələrini heç vaxt tərk etməyəcəklər. Tanrının bu yerlərdə göyərtdiyi Palma ağaclarını öz murdar qanları ilə suvarmayacaqlar.”

Monoqrafiyada geniş surətdə təhlil olunan ikinci dram əsəri Volterin 1767-ci ildə qələmə aldığı “Skiflər” faciəsidir. Əsər qısa müddət ərzində dəfələrlə nəşr olunmuşdu. Tədqiqatçı əsərin yaranma səbəbinə münasibətini bildirərək yazır: “Yazıçı teatrı, səhnəni, tamaşaçı marağını yaxşı duyurdu. Volter yazırdı ki, Paris və London kimi şəhərlərdə dramatik tamaşalar mütləq yazmaq lazım idi ki, sonra oxucu deməsin: “Mən bunun hamısını bilirdim və mən bundan yaxşısını görmüşəm.”

Son dərəcə dolğun olan bu faciədə skiflərin adətlərinin - daha doğrusu, toy adətlərinin “Kitabi-Dədə Qorqud” dastanındakı toy adətləri ilə




